

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

28 oktyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 41 (3554)

# ZƏNGƏZUR: DÜNYAYA AÇILAN DƏHLİZ

## Azərbaycan sülh üçün regionda önəmli layihələr həyata keçirir



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Prezident Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Prezidenti İlham Əliyev qarşılayıb.

Dövlət başçıları Füzuli Beynəlxalq Hava Limanının rəmzi açılışını bildirən lenti kəsiblər və onlara rəmzi açarlar təqdim edilib.

Prezidentlər hava limanında yaradılan şəraitlə tanış olublar.

AZAL-ın prezidenti Cahangir Əsgərov dövlət başçılarına görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının uçuş-enmə zolağının uzunluğunun 3 min, eninin isə 60 metr olduğu, istənilən tip hava gəmisini qəbul etmək imkanlarının yaradıldığı, müasir infrastrukturla təchiz olunan terminalın saatda ən azı 200 sərnişinin buraxılışına imkan verdiyi vurğulanıb. Hava limanında baqaj konveyerlərinin, qeydiyyat sisteminin, VIP zalların, mağazaların, restoranların və digər zəruri məntəqələrin yaradıldığı, sərnişinlərin rahatlığı üçün bütün meyarların mövcud olduğu diqqətə çatdırılıb.

Zəngilan və Laçında beynəlxalq hava limanlarının tikildiyi, onların inşası ilə regionun nəqliyyat imkanlarının daha da genişləndiriləcəyi də qeyd olunub.

Beynəlxalq hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin etməklə yanaşı, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, ümumilikdə bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq.



Dövlət başçılarına Cocuq Mərcanlıda açılacaq Suvenir İstehsalı Müəssisəsinin fəaliyyəti barədə də məlumat verilib.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına Şuşanın simvolu olan "Xarıbülbül" təsvirli saatları hədiyyə edib.

Həmin gün Prezidentlər Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olublar.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlət başçılarına ətraflı məlumat verib.

Daha sonra Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoyublar.

Səfər çərçivəsində dövlət başçıları Zəngilan rayonunda da olublar.

"Dost Aqropark"ın təməlini qoyan və aqroparkın ərazisində çinar ağacı əkən Prezidentlərə Zəngilanda həyata keçiriləcək işlər barədə məlumat verilib. Bildirilib ki, bu layihə Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaq.

Anadolu Agentliyinin Vətən müharibəsini özündə əks etdirən fotosərgisinə baxışdan sonra Prezident Rəcəb Tayyib Ərdoğan ön sözünü yazdığı və Anadolu Agentliyi tərəfindən hazırlanan "Qarabağ Zəfəri" kitabını ölkəmizin rəhbərinə təqdim edib.

Zəngilanın Ağalı kəndinə gələn dövlət başçılarının şərəfinə düzülən fəxri qarovul dəstəsini Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan salamlayıb.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezidentlərin qarşısından keçib.

Kənd təsərrüfatı naziri İnam Kərimov dövlət başçılarına "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlər barədə məlumat verib.

Bildirilib ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır.

Sonra prezidentlərin təkbətək görüşü keçirilib və dövlət başçıları mətbuata birgə bəyanatlarla çıxış ediblər.

# ƏBƏDİYYƏTƏ QOVUŞANLAR

## Şəhidlərimizin məzarları ziyarət olunub, ruhlarına dualar oxunub

***Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan DİN Daxili Qoşunların hərbi qulluqçularının paytaxtda və yerlərdə anım mərasimləri keçirilir.***

Şəhid hərbi qulluqçu, mayor Şixamir Qaflanovun ildönümü münasibətilə keçirilən mərasimdə DİN təmsilçiləri, Zaqatala Rayon Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları, rayon ictimaiyyəti və döyüş yoldaşları iştirak ediblər.

Əvvəlcə rayonun Üçüncü Tala kəndində şəhidin məzarı ziyarət olunub, önünə gül dəstələri düzülüb. Çıxış edənlər Ş.Qaflanovun keçdiyi şərəfli ömür yolundan, döyüşlərdə göstərdiyi qəhrəmanlığından danışıb, parlaq xatirəsinin qəlblərdə əbədi yaşayacağını bildiriblər.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə mayor Şixamir Qaflanov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qax rayonunda da Vətən müharibəsi şəhidinin anım mərasimi keçirilib. DİN, Rayon İcra Hakimiyyətinin və Rayon Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları, eləcə də ictimaiyyət nümayəndələri şəhid hərbi qulluqçu, baş çavuş Emil Fətəliyevin məzarını ziyarət edərək önünə əklil qoyub, ruhuna dualar oxuyublar. Anım mərasimində onun şərəfli ömür yolundan, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdəki şücaətindən bəhs edilib.





Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə baş çavuş Emil Fətəliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

# NARKOMANİYA DÜNYANIN DƏRDİDİR

## Polis yenidən təhsil müəssisələrində maarifləndirici tədbirlər həyata keçirir





Yeni tədris ilində təhsil müəssisələrinin ənənəvi təhsil formasına qayıtması ilə polis yenidən maarifləndirici tədbirləri aktiv formada davam etdirir. Artıq yerlərdəki polis şöbə və bölmələrin əməkdaşları tərəfindən təhsil ocaqlarında narkomaniya, zərərli vərdişlər və məişət zorakılığı mövzularında profilaktik tədbirlər keçirilir. Karantin qaydalarına əməl etməklə keçirilən görüşlərdə elə pandemiyadan qorunma üsulları, gigiyenik qaydalara riayət etməyin önəmi barədə də məlumatlar verilir.

Bakı şəhərində belə maarifləndirici tədbirlərə üstünlük verən paytaxt polisi bugünlərdə Sabunçu və Nizami rayonlarında görüşlər keçirib.

Sabunçu rayon ərazisində yerləşən Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində baş tutan tədbirdə **Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova, Sabunçu RPİ İctimai Təhlükəsizlik Şöbəsinin baş inspektoru, polis polkovnik-leytenantı Asif Məlikov,** tələbə və müəllim kollektivi iştirak edib.



Şagirdləri narkomaniya və digər zərərli vərdişlərin fəsadları barədə məlumatlandıran həmkarlarımız, onlara neqativ əməllərdən çəkinməyin, təhsilə, elmə, idmana maraq göstərmənin faydalarını izah ediblər. Gənclərin "ağ ölüm" təhlükəsindən qorunması, onların vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi üçün görülən işlərdən bəhs olunan tədbirdə, polisin narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı apardığı mübarizənin nəticələri diqqətə çatdırılıb.

Nizami rayonunun 210 nömrəli orta məktəbində də eyni mövzu ilə bağlı keçirilən tədbirdə ictimaiyyət nümayəndələri, Bakı şəhər BPİ və rayon polis şöbəsinin əməkdaşları iştirak ediblər.

Şagirdlər qarşısında çıxış edən həmkarlarımız uşaq hüquqlarının qorunması, onların yüksək təhsillə təmin olunmaları və vətənpərvərlik tərbiyəsi sahəsində görülən işlərdən danışıb, dövlətin gənclər siyasətinin uğurla davam etdirilməsi məqsədi ilə polisin üzərinə düşən vəzifələrdən, onların yerinə yetirilməsindən bəhs ediblər. Maarifləndirmə yolu ilə gəncləri hüquqazidd əməllərdən qorumağın polisin əlində əsas vasitə olduğu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Digər çıxışçılar da narkomaniyanın fəsadlarından, siqaret və alkoqolizm, internetdə zorakılığı təbliğ edən oyunların zərərli vərdiş kimi təsirlərindən söz açıblar.

Tədbirlərdə şagirdlər tərəfindən narkomaniya və digər zərərli vərdişlərin fəsadlarına dair videoçarxlar nümayiş olunub. Həmçinin məktəbliləri maraqlandıran suallar cavablandırılıb, onların iştirakı ilə müzakirələr aparılıb.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# TƏDBİRLƏR DAVAM ETDİRİLİR

## Polis üzərinə düşən missiyanı şərəf və ləyaqətlə yerinə yetirir

**Ötən il sentyabrın 27-də düşmənin cəbhəboyu genişmiqyaslı təxribatlarına cavab olaraq Silahlı Qüvvələrimiz "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. Müharibənin ilk günlərindən yolumuzu gözləyən kəndlər, şəhərlər azad edildikcə Qələbəmiz hər gün bizə daha da yaxınlaşırdı. 44 gün davam edən Vətən Müharibəsi təxminən 30 illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandanımızın, ordumuzun gücü və qüdrəti sayəsində möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**










Azad olunmuş ərazilərdə daxili işlər orqanları əməkdaşları aidiyyəti qurumların təmsilçiləri ilə birlikdə mina və partlayıcı vasitələrin hər an törədə biləcəyi ağır nəticələri nəzərə alaraq, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə bura qanunsuz daxilolmaların qarşısını almaqla yanaşı, ətraf kəndlərdə yaşayan, eləcə də digər rayon sakinləri ilə görüşlər keçirib, söhbətlər aparıblar. Qeyd edək ki, ötən bir il ərzində polis əməkdaşları düşmənin tərk etdiyi hərbi mövqelərdən və digər ərazilərdən xeyli sayda silah-sursat aşkar edərək aidiyyəti üzrə təhvil veriblər.

**Qubadlı Rayon Polis Şöbəsinin** əməkdaşları tərəfindən rayon ərazisində 7 avtomat, 2 pulemyot, 1 qumbaraatan, 1 minaatan qurğusu, 42 qumbara, 314 qumbaraatan mərmisi, 118 minaatan mərmisi, 280 müxtəlif növ alışdırıcılar, 22 minə yaxın müxtəlif çaplı patronlar, 31 partlayıcı vasitələr və digər sursatlar aşkar edilib.

Bundan əlavə, Dövlət Sərhəd Xidməti, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşlarının birgə keçirdikləri kompleks tədbirlər zamanı rayonun Davudlu, Bəxtiyarlı və Əliquluuşağı kəndlərinin ərazisində yabanı halda bitmiş ümumi çəkisi 7 tona yaxın olan 12 min 668 ədəd çətənə kolu yığılaraq məhv edilib.

**Zəngilan Rayon Polis Şöbəsi** əməkdaşlarının da keçirdikləri nəzarət-profilaktiki tədbirlər uğurla nəticələnib. Belə ki, rayon ərazisində aşkar edilərək götürülən 7 avtomat, 3 pulemyot, 2 qumbaraatan, 42 əl qumbarası, 7 mina və müxtəlif partlayıcı vasitələr, xeyli sayda müxtəlif çaplı mərmi, 60 minə yaxın güllə aidiyyəti üzrə təhvil verilib. Həmçinin rayon ərazisində yabanı halda bitmiş çəkisi 450 kiloqram olan 1810 ədəd çətənə kolu yığılaraq məhv edilib.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# CİNAYƏTKARLIĞIN BİZNES MÜHİTİNƏ TƏSİRİ MÜZAKİRƏ EDİLİB

**Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası tərəfindən cari il üçün müəyyən edilmiş iş qrafikinə uyğun olaraq videokonfrans formatında Komissiyanın "Cinayətkarlıqla mübarizə ilə bağlı xərclər" üzrə İşçi qrupunun növbəti görüşü keçirilib.**

Tədbirdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Mərkəzi Bankının, Azərbaycan Respublikası Baş Prokurorluğunun və Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin məsul nümayəndələri iştirak ediblər.

Görüşdə biznes mühiti ilə bağlı göstəricilərin yaxşılaşdırılması istiqamətində ölkədə aparılan islahatlar, beynəlxalq hesabatlarda əksini tapan cinayətkarlıqla mübarizə sahəsinə aid qiymətləndirmə meyarları, Azərbaycanın aidiyyəti indikatorlar və alt-indikatorlar üzrə mövqeləri müzakirə edilib. Bu istiqamətdə əldə olunmuş nəticələr və qarşıda duran vəzifələr, cinayətkarlığın biznes mühitinə təsiri, cinayətlər və digər hüquqpozmalar nəticəsində sahibkarlıq subyektlərinə vurula biləcək ziyanın minimuma endirilməsinin, sahibkarların hüquqlarının müdafiəsi, onlara dəymiş maddi ziyanın vaxtında və tam ödətdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin ölkənin investisiya cəlbediciliyinin artırılması üçün əhəmiyyəti, aidiyyəti fəaliyyət istiqamətləri üzrə "Cinayətkarlıqla mübarizə ilə bağlı xərclər" İşçi qrupunun qarşısında duran konkret tapşırıqlar və onların effektiv həlli mexanizmləri və digər məsələlərə geniş yer ayrılıb. Eyni zamanda https://az-ranking.az/online-apply onlayn müraciət bölməsi vasitəsilə qeyri-hökumət təşkilatlarının İşçi qrupunun fəaliyyətinə cəlb edilməsi, müzakirələrə aktiv qoşulması imkanları barədə fikir mübadiləsi aparılıb.

Sonda İşçi qrupun fəaliyyətinin daha səmərəli təşkili və beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yaxşılaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

*"Polis"*

# Ənənəvi aksiya-QANVERMƏ





Daxili işlər orqanlarında talassemiyadan əziyyət çəkən uşaqlara yardım məqsədilə könüllü qanvermə aksiyası ənənəyə çevrilib. Belə ki, növbəti qanvermə aksiyası Nəqliyyatda Baş Polis İdarəsinin Hava Nəqliyyatında Polis İdarəsində baş tutub.

Milli Hematologiya və Transfuziologiya Mərkəzi - Qan Bankı bölməsinin təşkilatçılığı ilə keçirilən aksiyada İdarənin rəhbərliyi olmaqla 28 əməkdaş iştirak edib.

Donorlar əvvəlcə həkim nəzarətindən keçirilib. Onların təzyiqləri ölçülüb, qanda hemoqlobinin miqdarı müəyyənləşdirildikdən sonra sağlıq durumu imkan verənlərin aksiyada iştirak etmələrinə icazə verilib. Könüllülük prinsipi əsasında keçirilən qanvermədə ümumilikdə 8,4 litr qan tədarük edilib.

Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi karantin qaydalarının tələbləri nəzərə alınmaqla keçirilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# ELİN gözü, SÖZÜ...

Polisin fədakar xidməti vətəndaş məmnunluğuna səbəb olur və biz "Elin gözü tərəzidir" məsəlindən çıxış edib polisin fəaliyyətinə nəzər yetirsək, yazılanların da, deyilənlərin də mahiyyətinə vararıq. Rəğbəti və nifrəti nə zorla demək olar, nə də ki, yazmaq. Çəkilən zəhmətə verilən qiymət hələ görülən, heç də asan olmayan işləri asanlaşdırır ki, bunu peşəmizə də şamil etmək olar. Necə deyərlər, qürur duyulası, diqqətə layiq olan xidmətlə sabitliyin və asayişin keşiyindəyik.



**Ağcabədi şəhər 9 saylı tam orta məktəbin direktoru Rizvan Quliyev yazır:** "Yollarda təhlükəsizliyin təmin olunmasında Azərbaycan Polisinin xidməti danılmazdır. Piyadaların yollarda təhlükəsizliyinin qorunması məqsədi ilə görülən işləri gözardı etmək olmaz. Bəzən qaydaları pozan piyadalar, həmçinin keçidlərdə piyadalara yol verməyən sürücülər polis tərəfindən müəyyən edilir və barələrində müvafiq tədbirlər görülür. Bütün bu görülən işlər əlbəttə ki, nəticəsiz qalmır, baş verə biləcək hər hansı bir neqativ hadisənin, hətta faciənin qarşısını vaxtında alır. Elə bugünlərdə Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən məktəbimizin qarşısındakı asfalt yolda nişanlanma xətlərinin və yol nişanlarının yenilənməsini ümumi işimizə töhfə kimi dəyərləndirirəm".

"Mən İkinci Qarabağ döyüşlərinin iştirakçısı olmağımla qürur duyuram. Füzuli rayon Yuxarı Qaraxanbəyli istiqamətində gedən döyüşlərdə yaralanmışam. Cənab Prezidentimiz tərəfindən 1 orden və 4 medalla təltif olunmuşam. Vətən müharibəsi başlayanda, o çətin günlərdə Daxili İşlər Orqanları əməkdaşlarının Azərbaycanımızın ərazi bütövlüyünün bərpa olunmasında, sabitliyin qorunmasında çox böyük xidmətlərinin bir daha şahidi oldum. Mən deyərdim ki, Azərbaycan Polisi iki cəbhənin döyüşçüsü oldu. Həm ön cəbhədə qəhrəmanlıq nümayiş etdirdi, həm də arxa cəbhədə fədakarlıq göstərdi. Bu məktub rəğbətimin ifadəsidir. Mənə göstərdikləri xüsusi diqqət və qayğıya görə isə Ağcabədi rayon DYPB-nin əməkdaşlarına təşəkkürümü bildirirəm".

***Bu fikirlər isə Vətən müharibəsi qazisi Zülfü Baxışovun DİN-ə ünvanladığı təşəkkür məktubundandır.***

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Gəncədə təlim keçirilir

## *İnsan alverinə qarşı mübarizə üzrə fəaliyyət müzakirə olunur*

**Daxili İşlər Nazirliyinin dəstəyi və Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə Gəncə şəhərində insan alverinə qarşı təlimlər keçirilir. "İnsan alverinə qarşı mübarizə üzrə fəaliyyət" layihəsi çərçivəsində oktyabrın 27-də başlayan təlimlər üç gün davam edəcək.**






Təlimin ilk günü tədbirdə çıxış edən ABŞ-ın ölkəmizə təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqer Azərbaycanda insan alveri ilə ciddi mübarizə aparıldığını, Prezident İlham Əliyevin sərəncamları ilə təsdiq edilmiş "İnsan alverinə qarşı mübarizəyə dair" 4 Milli Fəaliyyət Planının qəbul edilməsini də bu istiqamətdə irəliyə atılan ciddi addımlar olduğunu deyib. Təlimlərdə iştirak edən müxtəlif dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, eləcə də Daxili İşlər Nazirliyinin insan alverinə qarşı mübarizədə qabaqcıl qurum olduğunu vurğulayan səfir təlimlərin çox məhsuldar olacağına inamını ifadə edib.

Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri Vladimir Georgiyev də insan alverinə qarşı mübarizədə ölkəmizin əldə etdiyi uğurlara xüsusilə diqqət çəkib.

Daha sonra **DİN İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin şöbə rəisləri Ramil Kazımov, Araz Babayev, mühüm işlər üzrə baş əməliyyat müvəkkili Elşad Məmmədli** və qeyri-hökumət təşkilatının nümayəndələri insan alveri ilə mübarizə üzrə milli qanunvericilik bazası, insan alveri qurbanlarının müəyyən edilməsi, yardım mərkəzləri, qurbanların sığınacaqlara yerləşdirilməsi və digər mövzular ətrafında çıxışlar ediblər.

# Polis nə etsin?

## *Məktəb qarşısında valideyn və tıxac problemi*

**Sərt karantin rejimindən sonra ənənəvi təhsilin bərpa olunması şagirdlərin şən səs-küyünə həsrət qalmış məktəb həyatını və elə həyətini də yenidən canlandırıb.**

Dərsə tələsən şagirdlər adama qayğısız məktəb illərini xatırlatmaqdan tutmuş, hazırkı darıxdırıcı pandemiya dövründə normal həyatın işartılarının yaratdığı nikbin duyğulara qədər fərqli hisslər yaşadır. Ta ki, məktəblərin qarşısına çatana qədər... Çünki ondan sonra övladının əlindən tutub məktəbə gətirən hər hansı bir valideyn duyğuları ilə bir neçə dəqiqə baş-başa qalmağa nə imkan, nə də yer tapa bilir. Deyəcəksiniz keçib kənarda yaşasın hisslərini, ancaq elə məsələ də budur–məhz dərslərin başlama-bitmə saatlarında məktəblərin qarşısındakı küçə və yollardan keçmək duyğu deyil, güclü əsəb sistemi tələb edir.



Səbəbi də övladını məktəbə gətirən valideynlərin avtomobillərini düzgün park etmədiyinə görə yaranan süni tıxac, bəzən, hətta sürücülər arasında yer üstündə düşən yersiz mübahisələrin yaratdığı gərginlikdir. Tez - tez şəhərin mərkəzindəki əksər məktəblərin qarşısında yolun hərəkət hissəsi bu səbəbdən tam bağlanır və bundan sonra səs siqnalları işə düşür, yol verməmək üstündə sürücülər arasında insident yaşanır.

Məsələyə münasibət



bildirən **Bakı şəhər BPİ DYPİ-nin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov** qəzetimizə bildirib ki, əsasən Azadlıq, Parlament prospektləri, 28 may, Nizami, R.Behbudov, Bakıxanov kimi şəhərin mərkəzi küçələrində valideynlər dayanma-durma, parklanma qaydalarına əməl etmirlər. Bu isə səhər, günorta və axşamüstü saatlarında hərəkəti iflic edir. "Bəzən valideynlər müxtəlif bəhanələrlə avtomobili yolun ortasında saxlayıb düşür, övladının əlindən tutub aparır məktəbin həyətinə, yola salır, bir də durub əlini yelləyib sağollaşır. Bu isə, ən azı 3 dəqiqə vaxt aparır. Nəzərə almaq lazımdır ki, avtomobilin 30 saniyə yolda hərəkəti saxlaması 70-ə yaxın sürücünü 5-7 dəqiqə ləngidir ki, bu da günün pik saatlarında bütün hərəkəti yubadır",- deyən V.Əsədov həmin saatlarda yol polisi əməkdaşlarının tam səfərbər olduqlarını, məktəblərin yerləşdiyi ərazilər də daxil olmaqla hərəkəti nizamladıqlarını vurğuladı.

Deməli, məktəblərin qarşısında yol hərəkətinin təşkili üçün Bakı şəhər BPİ DYPİ tərəfindən lazımi tədbirlər görülür və bu məsələdə əsas məsuliyyət valideynlərin üzərində qalır. Hərəkət iştirakçısı olaraq sürücü mədəniyyətinə sahib olmağın, dayanma-durma qaydalarına əməl etməyin, həm də ictimai məsuliyyəti var. Yeni valideyn təhsili, təlim-tərbiyəsi üçün məktəbə apardığı övladının qarşısında şəxsi örnək olmaq məsuliyyətini də yaddan çıxarmamalıdır. Böyüklər bunu nəzərə alanda, məktəb yollarındakı çilə də tamamilə bitəcək.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Axtarışda olan şəxs saxlanılıb

**Binəqədi RPİ 5-ci Polis Bölməsi** əməkdaşları tərəfindən həyata keçirilən uğurlu əməliyyat zamanı Rayon İcra və Probasiya şöbəsi tərəfindən axtarışda olan Bakı şəhər sakini Emil Qasımov saxlanılıb.

**Bölmə rəisi, polis mayoru Cavid İsmayılzadə** "Polis"in suallarını cavablandırarkən bildirib ki, E.Qasımov iki övladına görə keçmiş həyat yoldaşı Rəna Qasımovaya müəyyən müddətdir ki, aliment ödəməkdən boyun qaçırır. Köməksiz qalan ana polisə üz tutub. Təxirəsalınmaz əməliyyat tədbirləri, o cümlədən yüksək operativlik və peşəkarlıq nəticəsində asayiş keşikçiləri qısa zaman kəsiyində E.Qasımovun yerini müəyyən ediblər.

Dindirilmə zamanı o da müəyyən olunub ki, Emil tüfeyli həyat tərzi keçirir.

O, aidiyyəti üzrə Rayon İcra və Probasiya şöbəsinə təhvil verilib, eləcə də borclu olduğu alimentin bir hissəsinin ödətdirilməsi polis əməkdaşları tərəfindən təmin edilib.



# "İSTİ İZLƏR"lə

**Sabunçu rayonunda oğurluq hadisəsinin üstü "isti izlər"lə açılıb. Daxil olmuş məlumat əsasında Rayon Polis İdarəsi 13-cü Polis Bölməsinin əməkdaşlarının keçirdikləri uğurlu əməliyyat nəticəsində Ağsu rayon sakini Məhəmməd Məmmədli saxlanılıb.**

Belə ki, o, sosial şəbəkədə hassan_abdulla3ff adlı istifadəçinin mobil telefonunu satışa çıxardığını görüb və onu almaq istədiyini bildirib. Tərəflər qarşılıqlı razılaşma əsasında Rayon İcra Hakimiyyətinin yanındakı binanın qarşısında görüşüblər. Məhəmməd telefonu həyat yoldaşına göstərmək bəhanəsilə bloka girib və arxa çıxışından çıxaraq oradan uzaqlaşıb. Bölmə əməkdaşları onu yaşadığı Ağsu rayonunda yaxalayıblar.

İlkin dindirilmə zamanı o da bəlli olub ki, Məhəmməd anoloji əməllər törətməklə daha bir neçə vətəndaşa maddi ziyan vurub.

Toplanmış materiallar əsasında RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Fədakar, xeyirxah, qayğıkeş...

**Polisin xidməti vəzifəsi ilə bağlı yazmaqla daxili işlər orqanlarının fəaliyyətinə güzgü tutmağa çalışırıq.**

Ancaq bizim dilə gətirmədiklərimiz də var və bunlar polis əməkdaşlarının gündəlik həyatda xeyirxahlıq, yardımsevərlik, qayğıkeşlik kimi şəxsi insani hisslərinin təcəssümü ilə bağlıdır. Kimsəsizə əl tutan, ehtiyac sahibinə yardım edən, ac olanla çörəyini paylaşan, evsiz qalana şəxsi vəsaiti hesabına ev belə tikən polis əməkdaşlarının nəcib əməllərini qabartmırıq adətən. Çünki bunları həyat tərzi sayırıq və əməkdaşlarımız da belə məsələlərdə "sağ əli verəni, sol əl bilməz" düşüncəsi ilə susurlar.

Onların bu "sirrini", bir qayda olaraq, vətəndaş məktubları "ifşa edir". Polis əməkdaşlarından diqqət və qayğı görən, maddi-mənəvi kömək alanlar təşəkkür dolu məktublar ünvanlayırlar və onların minnətdarlıq duyğularına hörmət olsun deyə, biz də yazmalı, dilə gətirməli oluruq.

Belə vətəndaşlardan biri Astara rayon sakini 66 yaşlı Mirbəşir Talıbovdur. O, yazır ki, yataq xəstəsi olan həyat yoldaşı Şərifə Talıbovanın qəflətən səhhəti ağırlaşıb. Təcili mənfi I qrup qana ehtiyac yaranıb və tez bir zamanda həmin qrup qanı tapa bilmədiyinə görə son ümid yeri kimi polisə üz tutub. Astara RPŞ-nin əməkdaşları dərhal tələb olunan qan qrupunun təmin olunması üçün qan verib, xəstəni xilas ediblər.

M.Talıbov həyat yoldaşını həyata qaytaran polislərə, başda DİN rəhbərliyi olmaqla təşəkkür edir. Ancaq onun son cümləsi xüsusilə diqqətçəkəndir və elə qeydlərimizi də onunla tamamlamaq istəyirik. Çünki, bu bir cümlə özündə polisin fədakarlığının son həddini tam əks etdirir. Yazır ki: "Səmimiyyətimlə deyirəm, Azərbaycan Polisi qanını və canını vətəndaşlardan əsirgəmir!"

*R.Mehtiyev*

# ELAN

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi operativ vəzifələri üzrə müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.**

Müsabiqədə yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Bakı şəhərində daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək, analitik düşünmə və araşdırma, düzgün qərar vermək və problem həll etmək qabiliyyətlərinə malik, komandada işləmək bacarıqları və qrammatik bilikləri yüksək səviyyədə olan, məsuliyyətli, diqqətli və inkişafa meyilli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcək.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə 500-800 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

İştirak etmək istəyən şəxslər 2021-ci ilin oktyabr ayının 18-dən noyabr ayının 18-dək Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

***Əlavə məlumat üçün əlaqə telefonları: (012) 590-80-66; (012) 590-93-64 şəhər 13-64; 80-66 daxili***

**Daxili İşlər Nazirliyi**

# KORONAVİRUS XƏSTƏLƏRİ SAXLANILIB

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Oktyabrın 20-dən 26-dək olan müddətdə polis əməkdaşları tərəfindən 14 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 5 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

*Natiq Cavadov*

# Növbəti uğurun sorağı

***Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin yetirmələrinə, idmançı polislərə göstərilən həssas münasibət, yüksək diqqət və qayğı, yaradılan şərait onları yeni-yeni zirvələr fəth etməyə sövq edir.***

Onların növbəti uğur sorağını İtaliyanın Cesolo şəhərində keçirilən Dünya Çempionatından almışıq. Oktyabrın 15-dən 24-dək kikboksinq üzrə böyüklər arasında WAKO üzrə Dünya Çempionatı keçirilib. Daxili İşlər Nazirliyinin İdman Cəmiyyəti yarışlarda WAKO "Lo-Kick" versiyası üzrə böyük məşqçi, gənclər və yeniyetmələrdən ibarət milli yığma komandanın baş məşqçisi, əməkdar məşqçi, Baş Mühafizə İdarəsinin əməkdaşı, polis




baş serjantı Hikmət Hacıyevin rəhbərliyi altında 6 idmançı ilə təmsil olunub.

Keçirilən görüşlərdə Kikboks Federasiyasının 1-ci vitse prezidenti, WAKO üzrə Dünya çempionu, peşəkar döyüşlərin qalibi Ramal Aslanov rus, xorvat və qırğız idmançılarını məğlub edərək final mərhələsinə vəsiqə qazanıb. Ancaq finalda rəqibin xal hesabı ilə qalib gəldiyini düşünən hakimlərin qərarından sonra gümüş medalla kifayətlənməli olub.

DİN İdman Cəmiyyətini təmsil edən digər idmançılar - Hüseyn Hacıyev 16/1, Elməddin Baxşəliyev isə 8/1 mərhələdə mübarizəni dayandırıblar. Əsgər Rəhimovla Məhəmməd İmanov isə Vətənə bürünc medalla qayıdıblar.

Veteranlar arasında İdman Cəmiyyətinin Baş İnspektoru, polis polkovnik-leytenantı Eduard Məmmədov 63 kq. çəki dərəcəsində tatami üzərinə çıxıb. İlk döyüşdə italiyalı idmançıya 15 xal üstünlüklə vaxtından tez qalib gələn həmkarımız, ikinci döyüşdə Avstriya təmsilçisini məğlub edib. Final mərhələsində isə Ukrayna idmançısını yarışdan kənarlaşdıraraq qızıl medala sahib çıxıb. Bununla da o, WAKO versiya üzrə 6-cı, ümumi bütün versiyalar üzrə 26-cı dəfə Dünya Çempionu olub.

Vətən müharibəsindən sonra ilk yarışına çıxan E.Məmmədov qələbəsini şəhidlərimizə həsr etdiyini bildirib.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

**Baş Dövlət Yol Polisi İdarəsi** və **İmişli RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında Bəhrəmtəpə qəsəbəsi ərazisində birgə keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində qəsəbə sakini S.İmanovun idarə etdiyi "Mitsubishi" markalı avtomobilə baxış zamanı oradan "AK-74" markalı silah aşkar edilərək götürülmüşdür. S.İmanov və sərnişini, Çaxırlı kənd sakini M.Rəhimov saxlanılmışlar. Araşdırma aparılır.

◆◆◆

**Sumqayıt ŞPİ 2-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini M.Rzayev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin, metamfetamin və 43 ədəd metadon həbi aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nərimanov RPİ 18-ci PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cari il iyulun 9-da Bərdə rayon sakini Ə.Mahmudlunun bank kartını oğurlayaraq hesabından 300 manat pulunu çıxarmaqda şübhəli bilinən Ağdam rayon sakini V.Məmmədov saxlanılmışdır.

◆◆◆

**Qazax RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində saxlanılan şəhər sakini Ə.Əfəndiyevdən "Makarov" markalı tapança, 3 patron darağı və 21 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Yevlax RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş V.İsmayılov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilərək götürülmüşdür. Davam etdirilən tədbirlərlə narkotik vasitəni ona satmaqda şübhəli bilinən Yevlax sakini, əvvəllər məhkum olunmuş A.Hüseynov da müəyyən edilərək saxlanılmışdır. Onun evinə baxış zamanı oradan 129 qrama yaxın heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**İmişli RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Rəsullu kəndində yaşayan, əvvəllər məhkum olunmuş N.Əzizovun evinə baxış zamanı oradan 54 qramdan artıq heroin, 4 qramdan artıq tiryək, 9 qrama yaxın metamfetamin və 2 kiloqram 251 qramdan artıq marixuana aşkar edilərək götürülmüşdür. N.Əzizovun orada qonaqları olan əvvəllər məhkum olunmuşlar S.İsmayılovdan və C.Cabbarlıdan da şəxsi axtarış zamanı heroin götürülmüşdür.

◆◆◆

**Şəmkir RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 19-da Şəmkirçay su anbarının magistral kanallarının istismarı idarəsinə məxsus yüksək təzyiqli boru kəmərlərinin 16 ədəd dayaq yastıqlarını (15 min 600 manat dəyərində) oğurlamaqda şübhəli bilinən rayon sakinləri O.Hüseynov, V.Məmmədov, İ.Səfərov, E.Aslanov, V.Məhərrəmov və E.Məmmədov müəyyən edilərək saxlanılmışlar.

*Natiq Cavadov*

# Dəymiş ziyan ödənilib




Nizami Rayon Polis İdarəsinin Təhqiqat şöbəsinin əməkdaşları tərəfindən vətəndaşın etibarından sui-istifadə etməklə ona maddi ziyan vuran şəxs saxlanılıb.

İstintaq zamanı məlum olub ki, vətəndaş Sevda Əliyeva rayon ərazisindəki "İzmir" mebel salonunda satıcı işləyən Amil adlı şəxsdən 1700 manat dəyərində məişət texnikası alıb. Bir neçə ay sonra S.Əliyeva aldığı məişət texnikalarının ikinci əl olduğunu anlayıb və Amilə zəng vuraraq onları geri qaytarmaq istədiyini bildirib. Lakin Amil iki aylıq zəmanət müddətinin, eləcə də satılan əşyaların qaytarılmasına verilən 14 günlük möhlətin bitdiyini və əşyaların geri qaytarılmasının mümkün olmadığını deyib. Zərərçəkmiş kömək üçün polisə müraciət edib.

Nizami RPİ Təhqiqat şöbəsinin rəisi, polis polkovnik-leytenantı Emil Rüstəmovun sözlərinə görə, zərərçəkmiş şəxsin müraciəti əsasında mebel salonunda məişət texnikalarının alışı və satışı ilə məşğul olan satıcı Amil idarəyə dəvət olunub, onunla izahedici, profilaktik söhbətlər aparılıb. Tərəflərin razılığı əsasında məişət texnikaları geri qaytarılıb, zərərçəkmiş S.Əliyevaya dəymiş maddi ziyanın tam ödətdirilməsi təmin edilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Monitorinqlər nəticəsində...




20-26 oktyabr tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 559 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 453 şadlıq sarayında, 106 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 130 nəfər İnzibati Xətatalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;
- 2 nəfər İnzibati Xətatalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə inzibati qaydada həbs edilib;
- 1 nəfər barədə material baxılması üçün məhkəməyə göndərilib;
- 2 faktla bağlı Cinayət Məcəlləsinin 139-1.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb;
- 2012 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

## Oktyabr ayının 20-dən 26-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 274 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 35 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 478, o cümlədən borclu şəxs qismində axtarışda olan 378 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 14 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 15 nəfər ölmüşdür.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 156 fakt müəyyən edilmişdir.

POLİS
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.